DÜNYA

# İran millisinin iki futbolçusu Avstraliya vətəndaşlığı alıb

20 dəqiqə öncə




Fatimə Pəsəndidə və Atifə Raməzanizadə

İran qadın futbol millisinin keçmiş üzvləri **Fatimə Pəsəndidə** və **Atifə Raməzanizadə** Avstraliya vətəndaşlığı alıblar. Onlar fevralın sonunda - ABŞ və İraillə İran arasında müharibə başlayanda, Asiya Kuboku yarışları zamanı Avstraliyadan sığınacaq istəmişdilər.

Müharibənin ilk günlərinə təsadüf edən ilk oyunda İran millisinin futbolçuları dövlət himnini oxumamışdılar. Bundan sonra İran mediasında onların ünvanına "xəyanət" ittihamı səslənincə, komandanın bir neçə üzvü Avstraliyada qalmağa qərar vermişdi.

Futbolçulara təzyiqlərin artması və İranda yaşayan ailələrinin təqib olunmasına dair xəbərlərdən sonra komandanın əksər üzvləri İrana qayıdıb. Pəsəndidə və Raməzanizadə

isə Avstraliyada qalıblar.

Avqustun 5-də Brisbendə keçirilən rəsmi mərasimdə Avstraliyanın daxili işlər naziri **Toni Börk** vətəndaşlıq sənədlərini hər iki futbolçuya şəxsən təqdim edib.

17 aprel

## İranlı iki qadın futbolçu 'təhlükəsiz sığınacaq' üçün Avstraliyaya təşəkkür edib

Aprelin 17-də İranın iki qadın futbolçusu Avstraliya hökumətinə onlara təhlükəsiz sığınacaq verdiyi üçün təşəkkür edib, idman karyeralarını bərpa etmək istədiklərini bildiriblər.

**Fatimə Pəsəndidə** və **Atifə Raməzanizadə** humanitar viza alandan bəri ilk dəfə ictimai açıqlama veriblər. Bəyanatda deyilir ki, onlara göstərilən dəstək təhlükəsiz şəraitdə yaşayıb yarışa biləcəkləri gələcəyə ümid yaradıb.

**"Bizə humanitar qoruma və bu gözəl ölkədə təhlükəsiz sığınacaq verdiyi üçün Avstraliya hökumətinə, xüsusilə də daxili işlər naziri Toni Börkə dərin təşəkkürümüzü bildiririk"**, – qadın futbolçular qeyd ediblər.

Martda İran qadın futbol yığmasının yeddi üzvü Avstraliyada sığınacaq istəmişdi. Onlar Asiya Kuboku oyunu öncəsi İranın dövlət himnini oxumaqdan imtina etmiş, İran dövlət mediası buna sərt reaksiya vermişdi.

Futbolçulardan beşi sonradan sığınacaq müraciətlərini geri götürüb, komandanın qalan üzvlərinə qoşularaq Malayziya üzərindən İrana qayıdıb.

Pəsəndidə və Raməzanizadə isə Avstraliyada qalıb. Hüquq müdafiəçiləri bəzi oyunçuların hökumətin güclü təzyiqi altında geri qayıtması ilə bağlı narahatlıq səsləndirib.

Hər iki futbolçu Avstraliyanın A-Liqa qadınlar liqasında çıxış edən "Brisbane Roar" komandası ilə məşq edərkən görüntülənib.

Bu hadisələr ABŞ və İsrailin fevralın 28-də İrana hava zərbələri ilə başlayan müharibə fonunda baş verib.




İranın qadınlardan ibarət milli futbol komandası Avstraliyada

## Avstraliyadan sığınacaq istəyən İran qadın futbolçuların beşi müraciətini geri götürüb

İranın qadın futbol komandasının kapitanı **Zəhra Qənbəri** Avstraliyada sığınacaq müraciətini geri götürüb və İrana qayıdacaq. Xəbəri İranın dövlət mediası yayıb. O, milli komanda sığınacaq üçün müraciətini geri götürən beşinci üzvüdür.

Qadın futbolçular Asiya Kuboku zamanı İslam Respublikasının dövlət himnini oxumamışdılar. İranda onlara "xain" damğası vurulandan sonra yeddi oyunçu və heyət üzvü sığınacaq istəmişdi.

İran hakimiyyəti Qənbərinin qərarını vətənpərvərlik adlandırıb. Müxalifət mediası, digərlərinin fikrincə, ailələrini təhdid etməklə oyunçulara təzyiq göstərilib.

Avstraliya rəsmilərinin bildirdiyinə görə, komanda üzvlərinə sığınacaq almaq üçün imkan yaradılıb, ancaq onlar "inanılmaz çətin" qərarlarla üzləşiblər.

Bir neçə nəfər artıq İrana getmək üçün Malayziyaya yola düşüb, nümayəndə heyətinin yalnız iki üzvünün Avstraliyada qalacağı gözlənilir.

1 mart

## İranlı qadın futbolçu Avstraliyada sığınacaq müraciətini geri götürüb

İranın qadın milli futbol komandasının Avstraliyada sığınacaq istəyən üzvlərindən biri komanda yoldaşları ilə danışdıqdan sonra müraciətini geri götürüb. Bunu Avstraliyanın daxili işlər naziri **Toni Börk** martın 11-də deyib.

Börk Avstraliya parlamentində bildirib ki, bir oyunçu geri qayıdan komanda yoldaşları ilə əlaqə saxladıqdan sonra qərarını dəyişib, onlar onu İran səfirliyi ilə danışmağa təşviq ediblər.

Yığma komanda martın 11-i səhər tezdən Sidneydən Kuala-Lumpura uçub.

10 mart

## İran qadın futbolçuları ölkəyə qayıtmağa çağırıb

İran Baş Prokurorluğu qadın futbol yığma komandasının Avstraliyaya sığınan oyunçularını ölkəyə qayıtmağa çağırıb.

Qurum futbolçuları ailələrinin narahatlıqlarına son qoymağa, "ölkənin düşmənlərinin fitnəsinə qarşı" ön cəbhədə durmağa səsləyib.

Bəyanatda komandanın azı beş üzvünün Avstraliyada sığınacaq alması qeyd olunmayıb. Amma vurğulanır ki, **"milli yığmanın bəzi üzvləri düşmənin fitnə və hiyləsinə qeyri-ixtiyari, emosional uyublar. Bu da ABŞ və İsrail rəhbərlərində xəyali bir həyəcan yaradıb".**

## Avstraliya İran futbolçularına humanitar vizalar verir

Avstraliyanın daxili işlər naziri İranın qadın futbol yığmasının beş üzvünə humanitar vizalar verildiyini bildirib.

**"Avstraliyalılar bu cəsur qadınların durumundan təsirləniblər"**, – Avstraliyanın baş naziri **Entoni Albaneze** martın 10-da Kanberrada mətbuat konfransında deyib.

**"Onlar burada təhlükəsizdirlər, özlərini evlərindəki kimi hiss etməlidirlər"**, – o əlavə edib.

ABŞ prezidenti **Donald Tramp** Albanezeni qadınların qalmasına icazə verdiyinə görə tərifləyib. O, sosial mediada yazıb ki, Avstraliya onları qəbul etməsəydi, ABŞ buna hazır idi.

Avstraliya rəsmiləri futbolçuların adlarını açıqlayıb, onların gizli bir məkanda polis qoruması altında qaldığını bildirib.

**Albaneze** hazırda Avstraliyada olan digər futbolçulara oxşar kömək göstərməyin mümkünlüyünü vurğulayıb, özlərinin seçimlə bağlı qərar verməli olduğunu deyib.

Televiziya kadrlarında digər iranlı oyunçuların qaldıqları oteldən avtobusla çıxdıqları görünüb. Avtobusda hansı oyunçuların olduğu, haraya getdikləri bəlli deyil.

Daxili işlər naziri **Toni Börk** isə X hesabında viza almış beş futbolçu ilə birgə fotosunu paylaşıb.

**Tony Burke**
@Tony_Burke · Follow

X

Last night I was able to tell five women from the Iranian Women's Soccer team that they are welcome to stay in Australia, to be safe and have a home here.



8:26 PM · Mar 9, 2026

23.4K Reply Copy link

Read more on X

Ötən həftə İran komandası Avstraliyada Asiya Kuboku matçında dövlət himnini oxumaqdan imtina etmişdi. Bu, ABŞ və İsrailin İrana hava zərbələri və ali dini lider Əli Xameneinin öldürülməsi fonunda baş verib. İranın dövlət televiziyası onları "müharibə satqınları" adlandırıb. Ancaq ikinci yarışda komanda himni oxuyub. İnsan haqları müdafiəçiləri onların buna məcbur edilməsindən əndişələnib.

Komanda bazar günü Filippinə 2-0 uduzandan sonra yarışda iştirakını başa vurub. Bundan sonra azarkeşlər, dövlət qurumları onların durumu ilə bağlı narahatlıq bildirib.

## Buna da bax:

İran Müctəba Xameneini yeni lider seçməklə 'boyun əyməmək' mesajı verir

Aviqdor Liberman: 'Ən pis ssenari onların hakimiyyətdə qalmasıdır'

Müctəba Xamenei atasının davamçısı rolunda

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur